"Böyük portretin işığı" kitabının birinci cildini yazıb tamamlayandan sonra görkəmli naşir Şəddat Cəfərovun həyatı ilə bağlı bir çox məqamların hələ də yazılmadığını hiss etdik.

Yaxşı öyrəndiyin portreti tamamlamaq çətindir. Nə qədər həyati rənglərdən istifadə etsən də, elə bilirsən ki, yenə qaranlıqda qalan tərəflər çoxdur. Beləliklə, biz Şəddat Cəfərov mövzusundan ayrıla bilmədik. Çünki biz mövzunun arxasınca getmirdik, mövzu özü bizi izləyirdi. Düşüncələrimiz məlum mövzu ilə təqib olunurdu. Elə bu səbəbdən də "Böyük portretin işığı" kitabının ikinci cildini yazmağa qərar verdik. Çünki Şəddat Cəfərov təbiət etibarı ilə çox işıqlı insandır. Ünsiyyəti, səmimi münasibəti ilə ətrafında cazibə yarada bilir.

Onun duyğu və düşüncə həssaslığı Azərbaycanın görkəmli şairlərinin, yazıçı və publisistlərinin diqqətini həmişə çəkib. Haqqında ayrıca kitaba sığmayacaq qədər poemalar, şeirlər yazılıb. Şəddat Cəfərov haqqında yazılanların ədəbi təhlil süzgəcindən keçirilməklə bu kitabda ehtiva olunmasına da çalışmışıq. Yəni təkcə Şəddat Cəfərovun özünün yazdıqlarını yox, həm də onun haqqında yazılanları da düşüncə mühitimizdən keçirməyə çalışaraq yazıya almışıq.

Şəddat Cəfərovun zəngin mənəvi mühiti var. Onun cəmiyyətə, ayrı-ayrı insanlara, bir sözlə, həyata münasibəti ayrılıqda bir kitab mövzusudur. Bu baxımdan görkəmli şair, nasir Qəşəm İsabəylinin Şəddat Cəfərov haqqında yazdığı xatirə-povest dediklərimizin bədii təsdiqidir.

İnsanın təbiət etibarı ilə narahatlığı həyatla bağlıdır. İnsanın bütün narahatlıqlarının əsasında cəmiyyətdə baş verən hadisələr dayanır. Şəddat Cəfə-

# Portretin işığına ikinci qayıdış

***Yazıçı-publisist Əli Rza Xələfli və "Kredo" qəzetinin gənc yazarı Ceyhun Zallının "Böyük portretin işığı" kitabı görkəmli naşir Şəddat Cəfərovun həyat və yaradıcılıq yolunun ən maraqlı məqamlarına işıq salır. Onu da oxucuların diqqətinə çatdırmaq yerinə düşər ki, "Böyük portretin işığı" kitabının birinci cildi 2020-ci ildə nəşr olunub. Eyni adla təqdim olunan kitab ikinci cilddir. Müəlliflər ədəbi obrazı həm özünün yaradıcılığı fonunda, həm də qaynar həyat hadisələrinin içərisində təqdim edirlər.***

***Əli Rza Xələfli və Ceyhun Zallının birgə əsəri kimi "Böyük portretin işığı" kitabının geniş oxucu əhatəsində maraq doğuracağına inanırıq.***




rov həyat hadisələrinin, əgər belə demək mümkünsə, həmişə ön atəş xəttində olub. Nə qədər sarsıntılara, hətta haqsızlıqlara məruz qalsa belə, özünün mənəvi mövqe səngərini inadla qoruyub. Ş.Cəfərovun həssas, həyati düşüncələrinə diqqət etmək bəs edər ki, qənaətimizin doğruluğuna şübhə yeri qalmasın: "Həyatımın əzəlindən günümüzəcən ötən çağları nəşriyyat-poliqrafiya sahəsi, mətbəə işi ilə bağlı olub. Bu da mənə imkan verib ki, söz adamları ilə, xalqımızımın görkəmli sənət adamları ilə sıx ünsiyyətdə olum. Onların kitablarının çapı ilə bağlı yaşadıqları hissləri, duyğuları, həyəcanları müşahidə imkanım məhz elə işimlə bağlı olub. Məlumdur ki, söz-sənət adamları çox həssas olur. Hətta ilk qarşılaşmada qeyri-səmimi bir münasibət görəndə belə çətin hallar keçirirlər. Küsüb gedəni də olur, inciyəni də olur. Xüsusilə mümkün olmayanı arzulamaq münasibətlərdə daha çox gərginlik yaradır. Üstəlik Sovet dövrünün sərt qadağaları mühitində müəlliflərin yazdıqlarının hamısını reallaşdırmağa kömək etmək olmurdu". Təkcə elə bu qeydlər bəs edir ki, onun zəngin həyatının mənasını başa düşəsən.

Biz o iddiada deyilik ki, Ş.Cəfərov haqqında yazılarımızla onun böyük həyat romanının son nöqtəsini qoyuruq, yox, gələcək nəsillər Şəddat Cəfərov mövzusuna təkrar-təkrar qayıdacaq. Çünki, zaman ötdükcə, dövran dəyişdikcə həyatda yaşarı izini əməlləri ilə təmin etmiş hər kəsi cəmiyyət yenidən öyrənmək istəyir. Və bu istək Şəddat Cəfərov kimi ədəbi qəhrəmanları təkrar-təkrar həyata qaytarır.

Bəlkə bir vaxt gələcək, həyatımızın indiki dövrünü öyrənmək istəyən yeni nəsil yazarlar tədqiqat istinadları axtaracaqlar. O zaman "Böyük portretin işığı" kitabının cildləri də diqqət mərkəzinə gələcək.

İşıqlı adamların həyatı onların yaşarı əməlləri ilə davam edir.

"Böyük portretin işığı" kitabının ikinci cildi bizim üçün böyük portretə ikinci qayıdışdır. Amma gələcəkdə belə qayıdışların çox olacağına tam əminik. Sözümüzün sonunda onu da bildirmək istərdik. İşıqlı adamları tanımaq, onlarla ünsiyyətdə olmaq, onları öyrənmək hər kəsin mənəvi mühitindəki qaranlıqları dağıdır. Bir sözlə, işıqlı adamlarınışığına gedirik. Yolumuz işıqlı olsun.

***Əli Rza Xələfli***
***Ceyhun ZALLI***
***15.11.2021***